

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 66 (21.218)

*7 aprel 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 5-də Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərə gediblər.

* * *

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səudun görüşü olub.

Söhbət zamanı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, əməkdaşlığın inkişafı baxımından bu səfərin əhəmiyyəti yüksək qiymətləndirildi. İslam ölkələri arasında qarşılıqlı anlaşmanın və faydalı əməkdaşlığın inkişafının vacibliyi vurğulandı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.

* * *

Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində paytaxt Ər-Riyadda görüşlərini başa çatdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 6-da Ciddə şəhərinə gediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Ciddədə İslam İnkişaf Bankı Qrupunun prezidenti Əhməd Məhəmməd Əli ilə görüşüb.



* * *

Aprelin 6-da Ciddədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi İyad bin Amin Mədəni ilə görüşü olub.

## Naxçıvanda "Kənd təsərrüfatı ili"nin ilk iməciliyi keçirilmişdir

Ekoloji mühitin qorunması insanların sağlam həyat şəraitində yaşamasına xidmət edir. Bu səbəbdən də muxtar respublikada yaşıllaşdırma tədbirləri mütəmadi olaraq davam etdirilir, yaşıllıq zolaqlarının sahəsi genişləndirilir, ətraf mühit qorunur. İnsanlara təbiətə qayğı hissi aşılayan yaşıllaşdırma tədbirləri, xüsusilə iməciliklərin keçirilməsi həm də kənd təsərrüfatının mühüm qolu olan meyvəçiliyin inkişafına təkan verir. Təkcə ötən il muxtar respublikada 440 mindən çox ağac əkilmişdir.





Aprelin 4-də Naxçıvan Muxtar Respublikasının şəhər, rayon və kəndlərində 2015-ci ilin ilk iməciliyi keçirilmiş, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin nümayəndələri yaşıllaşdırma tədbirlərində iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivləri Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin ətrafındakı ərazidə iməcilik keçirmişlər. İməcilik zamanı 3 hektardan artıq sahədə 2500 ədəd müxtəlif meyvə tingi əkilərək suvarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, yeni meyvə tingləri əkmiş, muxtar respublikada ağac əkinlərinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada "Kənd təsərrüfatı ili"ndə qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilmişdir





Aprelin 6-da "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili"ndə qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə iştirak etmişdir.

Müşavirədə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru Vasif Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və onun rayon bazaları üçün də inzibatı binalar, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilmiş, maddi-texniki baza xeyli gücləndirilmiş, gətirilmiş texnika və texnoloji avadanlıqların əkin sahələrinə uyğun bölgüsü aparılmışdır. Cəmiyyətin fəaliyyəti dövründə muxtar respublikaya 1595 ədəd texnika və texnoloji avadanlıq gətirilmiş, onlardan 1117-si lizinq yolu ilə sahibkarlara satılmışdır. Ötən dövrdə taxılçılığın inkişafına da diqqət artırılmış, məhsul istehsalçılarına güzəştli şərtlərlə 33 min 211 ton azot, 6505 ton fosfor gübrəsi satılmışdır.

*Ardı 2-ci səhifədə*

Muxtar respublikada heyvandarlığın inkişafı istiqamətində də ardıcıl tədbirlər görülür, mal-qaranın cins tərkibi yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən bu günədək 1810 baş damazlıq cins mal-qara xarici ölkələrdən alınaraq muxtar respublikaya gətirilmişdir. Vasif Məmmədov muxtar respublikada aqrolizinq xidmətinin nümunəvi təşkili üçün yaradılan şəraitə görə minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəklərini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: "2015-ci il ölkəmizdə, eləcə də muxtar respublikada "Kənd təsərrüfatı ili" elan olunmuşdur. Ona görə də bu il kənd təsərrüfatının inkişafına diqqət daha da artırılacaq, bu sahədə ciddi dönüşə nail olunacaqdır. Hazırda ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Əvvəllər kənd təsərrüfatı texnikaları torpaq mülkiyyətçilərinə və fermerlərə 10 il müddətinə lizinqə verilir, mineral gübrələr isə 50 faiz güzəştlə satılırdı. Lakin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının inkişafının stimullaşdırılması məqsədilə imzaladığı 2014-cü il 16 aprel tarixli Fərmanına əsasən, kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilməsi, eləcə də mineral gübrələrin 70 faiz güzəştlə satışının həyata keçirilməsi qərara alınmışdır. Qəbul edilən bu qərarlar yerlərdə aqrolizinq xidmətləri tərəfindən həyata keçirilir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti 2005-ci ilin yanvar ayından fəaliyyət göstərir. Ötən dövrdə cəmiyyətin muxtar respublikanın rayonlarında bazaları yaradılaraq lazımi texnika və avadanlıqlarla təchiz olunmuş, kollektiv üzərinə düşən vəzifələri yerinə yetirmişdir".

Ali Məclisin Sədri muxtar respublikada aqrolizinq xidmətinin təşkili sahəsindəki səmərəli fəaliyyətlərinə görə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin kollektivinə təşəkkür etmişdir.

Qeyd olunmuşdur ki, muxtar respublikada kənd təsərrüfatının inkişafına göstərilən diqqət, yaradılan şərait öz bəhrəsini verir. Bu gün muxtar respublikada ümumi daxili məhsul istehsalında kənd təsərrüfatı üçüncü yerdədir. Qarşıya qoyulmuş vəzifələrin icrası nəticəsində gələcəkdə ümumi daxili məhsul istehsalında kənd təsərrüfatının payı artacaqdır. Hazırda muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülür, torpaq sahələri əkin dövriyyəsinə daxil edilir, müasir kənd təsərrüfatı texnikaları alınır, güzəştli kreditlər verilir, yeni fermer təsərrüfatları və kənd təsərrüfatı təmayüllü istehsal müəssisələri yaradılır. Həyata keçirilən tədbirlər muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verir. Digər bir tərəfdən isə kənd təsərrüfatı təmayüllü istehsal müəssisələrinin yaradılması yerli xammalın ucuz qiymətə xarici bazara çıxarılmasının qarşısını alır. Bu da yeni istehsal müəssisələrinin yaradılmasına, iş yerlərinin açılmasına və daxili bazarın qorunmasına xidmət edir.



Ali Məclisin Sədri demişdir: "Bu gün ölkələrin qarşılaşdığı ən mühüm problemlərdən biri də ərzaq təhlükəsizliyi məsələsidir. Ərzaq təhlükəsizliyini təmin etmək üçünsə kənd təsərrüfatı ardıcıl şəkildə inkişaf etdirilməlidir. Ölkəmizdə, eləcə də muxtar respublikada bu məsələ diqqət mərkəzində saxlanılır. Ona görə də aid dövlət orqanları və rayon icra hakimiyyətləri "Kənd təsərrüfatı ili"ni uğurla başa vurmaq üçün qarşıya qoyulmuş vəzifələrin icrasına məsuliyyətlə yanaşmalı, yerlərdə kiçik fermer təsərrüfatlarının yaradılmasına üstünlük verilməli, bu sahə üzrə ayrılan kreditlərdən səmərəli istifadə olunmalıdır. Əkin sahələrinin su təminatı ödənilməli və suvarma suyundan qənaətlə istifadə olunmalı, yeni torpaq sahələri əkin dövriyyəsinə daxil edilməli, məhsuldarlıq artırılmalıdır. Muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır və kənd təsərrüfatı ilə məşğul olur. Bu səbəbdən də Kənd Təsərrüfatı Nazirliyinin və rayon icra hakimiyyətlərinin əməkdaşları daim yerlərdə olmalı, fermerlər və torpaq mülkiyyətçiləri ilə görüşlər keçirilməli, maarifləndirmə işi aparılmalı, aqrotexniki qaydalar ətraflı izah olunmalıdır".

Kənd təsərrüfatının inkişafında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin də üzərinə mühüm vəzifələrin düşdüyünü bildirən Ali Məclisin Sədri demişdir: "Kənd təsərrüfatının inkişafı həm də aqrolizinq xidmətinin düzgün təşkilindən asılıdır. Muxtar respublikada bu məsələyə xüsusi diqqət yetirilir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2015-ci ilin yaz əkinləri üçün muxtar respublikaya 90 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınıb gətirilmişdir. Payız əkini dövründə də yeni texnikaların alınması və lizinq yolu ilə satışının həyata keçirilməsi nəzərdə tutulmuşdur. Yeni kənd təsərrüfatı texnikaları yerlərdə fermerlərin iş qabiliyyətinin artırılmasına hesablanmışdır. Texnikaların və gübrələrin güzəştli şərtlərlə verilməsi təsərrüfatların daha da genişləndirilməsinə və məhsuldarlığın artırılmasına imkan verəcəkdir".

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş və qarşıya qoyulan vəzifələrin icrasında aid təşkilatlara uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına baxmışdır.

Məlumat verilmişdir ki, 2015-ci ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən muxtar respublikaya müxtəlif adda kənd təsərrüfatı texnikası və avadanlığı gətirilmiş, ötən müddətdə 22 müxtəlif təyinatlı texnikanın satışı həyata keçirilmişdir. Cari ildə gətirilən texnikalardan 10-u Avropa istehsalı olan kombayn, qalan 80 ədədi isə Türkiyə istehsalı olan 14 adda müxtəlif texnikalardır. Hazırda cəmiyyətin Şərur rayon bazasında 36, Babək rayon bazasında 31, Culfa rayon bazasında 27, Kəngərli rayon bazasında 17, Şahbuz rayon bazasında 14, Ordubad və Sədərək rayon bazalarının hər birində isə 12 kənd təsərrüfatı texnikası vardır. Müasir texnika və avadanlıqlar əkin sahələrində mütərəqqi aqrotexniki qaydaların tətbiqinə imkan verəcəkdir.

Ehtiyat hissələri və gübrə anbarlarına baxış zamanı bildirilmişdir ki, lizinq yolu ilə satılan texnikaların ehtiyat hissələrinin alınması da cəmiyyət tərəfindən diqqət mərkəzində saxlanılır. Hazırda ehtiyat hissələri anbarlarında kombayn, traktor və müxtəlif kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri vardır. Həmçinin 2015-ci ilin ötən dövründə gübrə anbarlarına 6 min 100 ton azot gübrəsi tədarük olunmuşdur.

Ali Məclisin Sədri yeni texnikalardan təyinatı üzrə səmərəli istifadə olunması və mexanizatorlar üçün təlim kurslarının təşkil edilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova

"Ölkəmizi tanıyaq" layihəsi üzrə biz Azərbaycanın ən qədim şəhəri, dahilər diyarı, ulu öndərimiz Heydər Əliyevin dünyaya göz açdığı bir məkana, möcüzələr diyarına – Naxçıvan Muxtar Respublikasına getdik. Naxçıvanın tarixi abidələri ilə, Heydər Əliyev Muzeyi, Xan sarayı, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Gənclər Mərkəzi, M.S.Ordubadinin və Y.Məmmədəliyevin ev-muzeyləri, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Duzdağ Fizioterapiya Mərkəzi və digər yerlərdə olduq.

Bu gəzintinin şagirdlərin intellektual səviyyəsinin yüksəldilməsində, vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rolu olacaqdır.

Dördgünlük gəzinti zamanı bu diqqət və qayğıya görə Sizə və sizin şəxsinizdə öz səmərəli vaxtlarını şagirdlərlə keçirdiklərinə görə öz adımdan, Masallı şagirdləri, Masallı gəncləri, Masallı ziyalıları adından çox sağ ol deyirik və səmimi təşəkkürümüzü bildiririk.

**"Ölkəmizi tanıyaq" layihəsi üzrə qrup rəhbəri**
**Xalidə KƏRİMOVA**
**30.03.2015**

## "Azərbaycanın tarixi coğrafiyasının aktual problemləri" mövzusunda elmi konfrans

***Aprelin 4-də "Naxçıvan" Universitetində "Naxçıvan" Universiteti, AMEA Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti əməkdaşlarının iştirakı ilə "Azərbaycanın tarixi coğrafiyasının aktual problemləri" mövzusunda respublika elmi konfransı keçirilib.***

Konfransın plenar iclasını giriş sözü ilə "Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, müasir dövrdə ölkəmizin sürətli sosial-iqtisadi inkişafı elmin müxtəlif sahələrində, o cümlədən tarixi-coğrafi problemlərin həllində yeni yanaşmalar tələb edir. Naxçıvan Muxtar Respublikasında elm və təhsilə göstərilən dövlət qayğısı elmi kadrların formalaşdırılması istiqamətində qarşımıza yeni vəzifələr qoyur. Keçirilən elmi konfransın əsas qayəsi də muxtar respublikanın elmi müəssisələrinin mövcud potensialından istifadə etməklə təqdim olunan mövzular üzrə elmi fikirlərin bölüşdürülməsidir.

Plenar iclasda çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Naxçıvanda elm və təhsilə olan maraq, tarixi coğrafiya problemlərinə müraciət olunması həmişə tarixi zərurət daşıyıb, xüsusən ötən əsrin son illərində baş verən hadisələr fonunda bu zərurət öz aktuallığını göstərib. Hazırda bu sahəyə olan marağın artırılması ölkəmizin və muxtar respublikamızın yerləşdiyi ərazinin tarixi hüdudlarının müəyyən olunması, regionda baş vermiş müxtəlif hadisələrin tarixi gerçəklikləri fonunda çox əhəmiyyətlidir. Bütün bunlar ölkəmizin məruz qaldığı haqsızlıqların unudulmaması, tarixi torpaqlarımızın yaxşı tanınması baxımından müasir Azərbaycan tarixi tədqiqinin əsas problemlərindəndir.

Konfransda çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov da Naxçıvanda tarixi coğrafiyanın öyrənilməsinin əhəmiyyətini bir daha vurğulayıb, təşkil olunmuş konfransın bu məsələlərin həlli istiqamətində çox uğurlu addım olacağına



əminliyini bildirib.

Plenar iclasda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin, Naxçıvan Dövlət Universitetinin Coğrafiya kafedrasının müdiri, dosent Nazim Bababəylinin, "Naxçıvan" Universitetinin tədris işləri üzrə prorektoru, dosent İbrahim Kazımbəylinin elmi məruzələri maraqla qarşılanıb.

Sonra konfrans "Tarix", "Coğrafiya", "İqtisadiyyat" və "Folklor və mədəniyyət" adlı bölmələrdə öz işini davam etdirib.

**✍ Əli CABBAROV**

*Əziz Şərif – 120*

## Ədəbiyyatşünas alimin 120 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

***Dünən Naxçıvan Müəllimlər İnstitutunda görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Konfransı giriş sözü ilə ali təhsil müəssisəsinin rektoru, professor Oruc Həsənli açıb.***

Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, dosent Əbülfəz Əzimli "Əziz Şərifin həyat və yaradıcılığı" mövzusunda çıxış edərək bildirib ki, XX əsr Azərbaycan elmi-ədəbi və ictimai fikrinin inkişafında professor Əziz Şərifin böyük xidmətləri olub. Ölkəmizdə və onun hüdudlarından kənarda bu görkəmli alim həm ədəbiyyatşünas, həm fədakar tərcüməçi, həm də publisist kimi tanınıb.

Qeyd olunub ki, Naxçıvan şəhərində dünyaya gələn Əziz Şərif ilk təhsilini burada məşhur maarifçi Məhəmməd Tağı Sidqinin rəhbərlik etdiyi "Tərbiyə" məktəbində alıb. Xalq içərisində ad çıxarmış bu təhsil ocağı Əziz Şərifin də elmə, maarifə yiyələnməsində mühüm rol oynayıb. Gənc Əziz Şərifin 1905-ci ildə Tiflisə gedərək atası Qurbanəli Şərifzadənin yaxın dostu və məsləkdaşı Cəlil Məmmədquluzadənin ailə mühitində yaşaması onun gələcək taleyi üçün mühüm əhəmiyyət kəsb edib. Əziz Şərifin Moskva dövrü həyatı genişmiqyaslı elmi-pedaqoji fəaliyyətlə və tərcüməçilik işi ilə bağlı olub. Xüsusilə görkəmli alim Rusiyada yaşayıb fəaliyyət göstərdiyi dövrdə Azərbaycan ədəbiyyatının və elminin təbliği və tanıdılmasında müstəsna xidmətlər göstərib. O, hər iki dildən – Azərbaycan və rus dillərindən elmi və bədii tərcümələr edən azsaylı tərcüməçilərdən idi. Onun tərcümələri orijinalın ruhuna, yazıçının üslubuna, yazı tərzinə çox uyğunluğu ilə seçilib. Buna görə də görkəmli ədibin tərcümələri Azərbaycan tərcümə sənətinin böyük nailiyyəti sayılır.

Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Kamal Camalov "Əziz Şərifin pedaqoji görüşləri" mövzusunda çıxış edərək bildirib ki, Əziz Şərif geniş yaradıcılıq diapazonuna malik bir şəxsiyyət idi. Publisistika, ədəbi tənqid, bədii tərcümə, pedaqoji iş, ictimai vəzifə onun fəaliyyətinin ayrı-ayrı sahələridir. Ölkəmizdə alim-filoloqların yetişməsi və inkişafında böyük alimin ciddi rolu olub. O, bir çox dissertasiyalara elmi rəhbərlik edib, namizədlik və doktorluq dissertasiyalarının rəsmi opponenti olub. Əziz Şərifin Azərbaycan, Gürcüstan və Rusiya mətbuatında nəşr olunan çoxlu elmi əsərləri əcnəbi alimlərin də diqqətini cəlb edib. Azərbaycan ədəbiyyatı və pedaqoji fikir tarixindən danışan əcnəbi alimlər Əziz Şərif yaradıcılığından mötəbər bir mənbə kimi istifadə edirlər.

Ali təhsil müəssisəsinin müəllimləri Fəxriyyə Cəfərova və Samirə Həsənova isə görkəmli elm xadimi və pedaqoq Əziz Şərifin tədqiqatçı-alim kimi fəaliyyətindən danışıb, böyük alimin maraqlı ömür yolundan bəhs ediblər.

Elmi konfransa Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli yekun vurub.

**✍ Səbuhi HƏSƏNOV**



Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası

*1948-ci il aprelin 7-də Ümumdünya Səhiyyə Təşkilatı fəaliyyətə başlamışdır. Həmin tarixdən etibarən hər il aprelin 7-si "Ümumdünya Sağlamlıq Günü" kimi qeyd olunur.*

*7 aprel Ümumdünya Sağlamlıq Günüdür*

# Muxtar respublikada insanların sağlamlığının qorunması diqqət mərkəzindədir

Əsası ulu öndər Heydər Əliyev tərəfindən ötən əsrin 70-ci illərində qoyulan səhiyyə islahatları ölkəmiz müstəqillik qazandıqdan və dahi şəxsiyyətin ali hakimiyyətə ikinci qayıdışından sonra inkişaf etdirilmiş, müasir tibb ocaqları tikilərək istifadəyə verilmişdir. Ulu öndərin müxtəlif vaxtlarda imzaladığı fərman və sərəncamlarla bu sahənin qanunvericilik bazası təkmilləşdirilmiş, əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyəti yüksəldilmişdir. Səhiyyəni cəmiyyət və dövlət həyatında mühüm sahə kimi qiymətləndirən ümummilli liderimiz demişdir: ***"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun inkişafı üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".***

Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi sahəsində mühüm proqramlar icra edilir, müasir tibb mərkəzləri açılır. Bütün bunlar vətəndaşların sağlam həyat tərzinə və firavan yaşayışına xidmət edir.

Naxçıvan Muxtar Respublikasının səhiyyəsi də özünün yüksək inkişaf dövrünü yaşayır. İnsanların sağlamlığının etibarlı mühafizəsi üçün davamlı tədbirlər həyata keçirilir. Son 20 ildə Naxçıvanda 220-dən çox tibb ocağının tikilib istifadəyə verilməsi səhiyyə sisteminin inkişafına göstərilən dövlət qayğısının əyani ifadəsidir. Ölkə başçısı cənab İlham Əliyev Naxçıvanda yeni tibb ocaqlarının tikintisini yüksək dəyərləndirərək demişdir: ***"Yeni xəstəxanaların açılışı artıq Naxçıvanda gözəl ənənəyə çevrilibdir... Onların hamısı yüksək keyfiyyətlə tikilib, yüksək standartlara cavab verir. Çox sevindirici haldır ki, muxtar respublikanın bütün rayonlarında gözəl, yeni, müasir tibb ocaqları tikilir. Burada quraşdırılan avadanlıq ən yüksək səviyyəyə layiqdir. Həm həkimlər üçün, həm də xəstələrin müalicəsi üçün bütün şərait var. Bax budur, bugünkü Azərbaycanın inkişafı".***

Muxtar respublikada səhiyyə quruculuğu 2014-cü ildə də uğurla davam etdirilmiş, 13 səhiyyə müəssisəsi istifadəyə verilmişdir. Ötən il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Kəngərli Rayon Mərkəzi Xəstəxanasının yenidənqurmadan



Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi

sonra istifadəyə verilməsi 90 illiyini qeyd edən Naxçıvan səhiyyəsinin həyatında əlamətdar hadisələrdən birinə çevrilmişdir. Hazırda isə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin, Dəri-Zöhrəvi Dispanserinin və Qazanılmış İmmun Çatışmazlığı Sindromu ilə Mübarizə Mərkəzinin tikintisi və Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidən qurulması davam etdirilir.

Bu gün muxtar respublikada səhiyyə sahəsində görülən işlər ancaq quruculuq tədbirləri ilə yekunlaşmır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 27 may tarixli Sərəncamı ilə muxtar respublikanın dövlət səhiyyə müəssisələrində bütün növ pullu xidmətlər ləğv edilmişdir. Son illər tibb ocaqlarında lazımi şəraitin yaradılması, müasir avadanlıqlar, müayinə və müalicə aparatları ilə təchizat hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan yaradır. Bütövlükdə, tibb müəssisələrinin stasionar və ambulatoriya bölmələri xidmətin əhatə dairəsini xeyli genişləndirmişdir. Bu gün səhiyyə müəssisələrindəki kompüter tomoqraf, nüvə maqnit rezonans, mamoqrafiya, qastroskopiya, kolonoskopiya aparatları müayinə və müalicənin düzgün və səmərəli təşkilinə mühüm fayda verir. Belə ki, 2014-cü il fevralın 17-dən mayın 1-dək bütün ölkə vətəndaşlarının kütləvi tibbi müayinədən keçirilməsi tədbirləri muxtar respublikada da uğurla icra olunmuş, 273 min 555 vətəndaş tibbi müayinədən keçirilmişdir. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrasını təmin etmək üçün hazırda muxtar respublikada ardıcıl tədbirlər həyata keçirilir. İndiyə kimi 79 min 237 uşaq müayinəyə cəlb edilmişdir.

"Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı artıq ölkəmizdə diridoğulmaların beynəlxalq meyarları qəbul olunmuş və 2015-ci ildən tətbiqinə başlanılmışdır. Muxtar respublikamızda da bu sahəyə xüsusi diqqət yetirilir, ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur. Son 15 ildə doğum göstəricisinin artması, ölüm hallarının isə aşağı düşməsi bunun əyani sübutudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublika səhiyyəsində islahatların bəhrələrinə diqqət çəkərək demişdir: ***"Ölkəmizdə, eləcə də muxtar respublikada səhiyyə sahəsində həyata keçirilən tədbirlər nəticəsində təhlükəli yoluxucu və infeksion xəstəliklərin qarşısı alınmış, bu xəstəliklərin statistikasında azalma olmuş, ana və uşaq ölümləri minimuma endirilmişdir".***

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində əməliyyat blokunun ən müasir tibbi avadanlıqlarla təchizatı, yüksəkixtisaslı tibbi kadrların yetişməsi artıq bir sıra mürəkkəb əməliyyatların yerli mütəxəssislər tərəfindən uğurla icra olunmasına şərait yaradır. Ötən il Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində yerli həkimlər tərəfindən bir neçə mürəkkəb cərrahi əməliyyat aparılmışdır.

Yüksəkixtisaslı həkim briqadalarının muxtar respublikaya dəvət olunaraq aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinin təşkili artıq ənənə halını almışdır. Təkcə 2014-cü il ərzində sosial layihələr çərçivəsində Türkiyə Respublikasından və Bakı şəhərindən mütəmadi olaraq dəvət olunmuş yüksəkixtisaslı həkimlər tərəfindən 6 xəstədə plastik əməliyyat, 110 xəstədə göz əməliyyatları yerinə yetirilmişdir. Bu cür humanitar aksiyalar muxtar respublikanın rayonlarında da həyata keçirilmiş, ötən il Ordubad, 2015-ci ilin ilk ayında isə Şərur Rayon Mərkəzi xəstəxanalarında müxtəlif cərrahi əməliyyatlar aparılmışdır. Mürəkkəb cərrahi əməliyyatlarda yerli həkimlərin iştirakı isə onların peşə və bacarıqlarının artırılmasına stimul verir. Belə tədbirlərin məntiqi nəticəsidir ki, artıq muxtar respublikanın yerli həkim kadrları müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, ürək damarlarına stent qoyulması, laparoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

Muxtar respublikada sağlam həyat tərzinin formalaşmasına nail olunmuşdur. Ümumdünya Səhiyyə Təşkilatının mütəzəm olaraq nəzarətdə saxladığı əsas yoluxucu xəstəliklərə, o cümlədən salmonellyoz, bakterial dezinteriya, difteriya, epidemik par, pedikulyoz, malyariya, leyşmanioz, poliomielit və tetanus kimi xəstəliklərə muxtar respublika ərazisində təsadüf olunmur. Digər yoluxucu xəstəliklər isə əvvəlki illərlə müqayisədə xeyli azalmışdır.

Naxçıvanda səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Son illər Duzdağ Fizioterapiya Mərkəzində və Darıdağ Arsenli Su Müalicəxanasında aparılan quruculuq işləri, yaradılan şərait müalicəyə gələn yerli əhali ilə yanaşı, xarici turistlərin də sayının artmasına səbəb olmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikasında əhaliyə 236 tibb müəssisəsi, o cümlədən 5 özəl tibb müəssisəsi tərəfindən müasir tibbi xidmət göstərilir. Onlardan 208-i rayonların payına düşür. Bu gün tibb müəssisələrində 734 həkim,



Babək Rayon Mərkəzi Xəstəxanası

2 mindən çox orta tibb işçisi çalışır. Orta hesabla bu gün muxtar respublikada hər 10 min nəfərə 7 həkim, 48 orta tibb işçisi düşür. Tibb işçilərinin ixtisas səviyyəsinin artırılması məqsədilə mütəmadi tədbirlər həyata keçirilir. Təkcə ötən il 17 həkim və 3 orta tibb işçisi Türkiyə Respublikasının müxtəlif universitet və xəstəxanalarına, 2 həkim Almaniya Federativ Respublikasına, 1 həkim Avstriya Respublikasına, 12 həkim və 1 orta tibb işçisi Bakı şəhərinə göndərilmiş, 38 orta tibb işçisi Naxçıvan Tibb Kollecində təkmilləşdirmə kurslarına cəlb olunmuşdur. Həmçinin 9 həkim və 5 orta tibb işçisi Bakı şəhərində, 12 həkim və 26 orta tibb işçisi Naxçıvan şəhərindəki xəstəxanalarda təcrübə kursu keçmişdir. Müxtəlif beynəlxalq, respublika və yerli əhəmiyyətli simpozium, konfransların, elmi-praktik seminarlar, məşğələ və treninqlərin təşkili də həkim və orta tibb işçilərinin bilik və peşə bacarıqlarının artırılmasında mühüm rol oynayır. Belə tədbirlər "Muxtariyyət ili"ndə də diqqət mərkəzində saxlanılmış, il ərzində 2-si beynəlxalq əhəmiyyətli olmaqla, 12 konfrans, 106-dan çox seminar təşkil olunmuşdur.

Ali Məclis Sədrinin müvafiq fərmanı ilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Əsasnaməsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, 2011-ci ildən praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan tibb işçilərinin sertifikasiyası işinə başlanmış və ötən dövr ərzində imtahanlarda iştirak edən 530 həkimdən 482-si növbəti beş il üçün sertifikat almışdır. Orta tibb işçilərinin sertifikasiya imtahanlarına isə 2014-cü ildən başlanılmış və hazırda davam etdirilir. Həmçinin səhiyyə sahəsində kadr təminatı da ən vacib məsələ kimi diqqət mərkəzində saxlanılır. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə mühüm töhfələr verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq, səhiyyə sistemində elektron xidmətlərin təşkilinə başlanılmışdır. Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin rəsmi internet saytı yaradılmış və elektron hökumət portalına qoşulmuşdur. İnternet səhifəsi vasitəsilə müxtəlif elektron xidmətlər göstərilir, nazirliyin ünvanına göndərilən onlayn müraciətlər və sorğular operativ cavablandırılır. Həmçinin sistem vasitəsilə müvafiq imtahantest sualları, obliqat qruplarının müayinəsi, uşaq sağlamlıq kartları, statistik məlumatlar muxtar respublikada yaradılmış lokal səhiyyə şəbəkəsinə ötürülür.

Səhiyyə infrastrukturunun yeniləşdirilməsi istiqamətində görülən işlər əhalinin hər bir təbəqəsini tibbi xidmətlə əhatə edən həkim briqadalarının fəaliyyətinə ciddi stimul vermiş, bu sahədə əsaslı irəliləyişlərə nail olunmuşdur. Hazırda təyin olunmuş həkim briqadaları tərəfindən əhali arasında dispanserizasiya işinin yaxşılaşdırılması və yerlərdə tibbi xidmət göstərilməsinə xüsusi diqqət yetirilir. Bu briqadalar müvafiq qrafik əsasında kəndlərdə olur, əhaliyə lazımi xidmət göstərirlər. Bu da xəstəliklərin aşkar edilməsi və vaxtında tam müalicə edilməsi baxımından son dərəcə əhəmiyyətlidir.

*Tibb işçiləri vətəndaşların sağlamlığının etibarlı təminatçısı olmaq üçün bundan sonra da səylərini əsirgəməyəcək, səhiyyənin inkişafına öz töhfələrini verəcəklər.*

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

# Muxtar respublikada "Muzey günləri" davam etdirilir

Muzeylərlə əlaqələrin daha mütərəqqi yollarla inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü il 19 dekabr tarixdə "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncam imzalamışdır. Bu sərəncama uyğun olaraq, Naxçıvan şəhərində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda çalışan kollektivlər müxtəlif profilli muzeylərdə olur, burada onlara tarixi keçmişimizin müxtəlif dövrlərini özündə əks etdirən eksponatlar, eləcə də görkəmli şəxsiyyətlərimizin həyat və fəaliyyətləri barədə ətraflı məlumatlar verilir. Bu tədbirlərin davamı kimi, aprelin 4-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi və Məşğulluq mərkəzlərinin, Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan Şəhər Şöbəsinin, Naxçıvan Şəhər Statistika İdarəsinin, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin, Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin kollektivləri Heydər Əliyev Muzeyində, Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin, Nəqliyyat, Rabitə, Gənclər və İdman idarələrinin kollektivləri Dövlət Bayrağı Muzeyində, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin, Dövlət Notariat kontorlarının, Naxçıvan Şəhər Qeydiyyat, Maliyyə, Təhsil şöbələrinin, Vergilər İdarəsinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, "Nuh yurdu" qəzeti redaksiyasının, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərin, Naxçıvan Şəhər Polis və Gömrük idarələrinin, Dövlət Yanğın Təhlükəsizlik Şöbəsinin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olmuşlar.

Həmin muzeylərə gələnlərə bu mədəniyyət müəssisələrində mühafizə və nümayiş etdirilən eksponatlar barədə ətraflı məlumatlar verilmiş, idarə, müəssisə və təşkilatların kollektivləri muzeylərin ekspozisiyası ilə yaxından tanış olmuşlar.

**Xəbərlər şöbəsi**

# Məktəblilərin ekoloji tərbiyəsini düzgün formalaşdırmalıyıq

Ekoloji tərbiyə günümüzün daha çox diqqət yetirilən sahələrindən birinə çevrilib. Bu da təbiidir. Çünki sağlam ekologiya sağlam cəmiyyət, sağlam yaşayış tərzi deməkdir. Bu səbəbdən də muxtar respublikamızda ekoloji tərbiyə işində müxtəlif yollardan, forma və metodlardan istifadə edilir. Qeyd olunmalıdır ki, ekoloji tərbiyə hələ kiçik yaşlardan başlanmalıdır. Erkən yaşlardan uşaqlarda təbiət hadisələrinə düzgün baxış formalaşdırmaq, onlara təbiəti, canlıları sevdirmək, uşaq qəlbində xeyirxahlıq hissləri oyatmaq vacib şərtlərdəndir. Kiçik yaşlardan buna diqqət yetirilməzsə, uşaqda təbiətə qarşı laqeydlik baş qaldıra bilər. Təbiətə qarşı bu cür münasibət uşaq qəlbində xeyirxahlıq hisslərinin kütləşməsindən başlanır. Bunun qarşısının alınmasında cəmiyyətin hər bir üzvünün, hər bir vətəndaşın üzərinə mühüm vəzifələr düşür. Bu vəzifələrin yerinə yetirilməsi həm də vətəndaşlıq borcumuzdur.

Naxçıvan şəhərində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzi də öz işini bu istiqamətdə qurmağa çalışır. 1971-ci ildə Gənc Təbiətçilər Stansiyası kimi yaradılan, 1991-ci ildən Ekoloji Tərbiyə Mərkəzi kimi fəaliyyət göstərən məktəbdənkənar müəssisədə "Faunanın ekologiyası", "Floranın ekologiyası", "Əhali və ətraf mühit", "Kütləvi-təşkilati işlər", "Metodika", "Yeni yaradılmış ekoloji ictimai birliklərlə iş", "Kənd təsərrüfatı və ekologiya" adlı 7 kabinə, "Naxçıvan Muxtar Respublikasının heyvanlar aləmi və onun ekologiyası", "Quşlar və ətraf mühit", "Təbiət və insan", "Gülçülük və ailə", "Ətraf mühit və flora" kimi dərnəklər təşkil edilib. 32 adda 139 dərnək məktəblilərin ekoloji tərbiyəsi ilə məşğul olur. Dərnəklərə 1929 şagird cəlb edilib. Onlarda doğma yurdun təbiətinə məhəbbət hissləri formalaşdırmaq üçün mərkəzin müəllimləri bütün imkanlarından istifadə edirlər. Mərkəzdə çalışan müəllimlər öz məşğələlərini günün tələbləri səviyyəsində qurmağa səy göstərir, mövzu ilə əlaqədar bəzi məşğələlərin təbiətin qoynunda keçilməsinə çalışırlar. Dərnək üzvlərinin rayon və respublika səviyyəli tədbirlərdə fəal iştirak etmələri diqqət mərkəzində saxlanılır. Onların muxtar respublikanın təbiət abidələrinə ekskursiyaları təşkil olunur. Bu ekskursiyalarda diyarımızın zəngin fauna və florası barədə söhbətlər aparılır, herbarilər, müqəvvalar, kolleksiyalar düzəldilir. Mərkəzdə həmin eksponatlardan ibarət sərgi hazırlanır.

Ekoloji tərbiyə sahəsində dərslərdə aparılan iş sinifdənxaric və məktəbdənkənar tədbirlər yolu ilə daha da dərinləşdirilir. Yerli şəraitdən asılı olaraq, təbiəti mühafizə işinin müxtəlif formalarından istifadə olunur: məktəb meşəçiliyi, gənc təbiətçi dərnək və klubları, məktəb qoruqları, meyvə bağları, şagird istehsalat briqadaları, ekologiya üzrə olimpiada və viktorinalar, məktəb ekologiya cəmiyyəti, ekologiya ayları, ekologiya reydləri və sair belə maraqlı formalardandır. Məktəblərdə və yaşayış yerlərində yaşıllıq iməciliklərinin keçirilməsi, mavi və yaşıl keşikçi dəstələrinin yaradılması, ilk çiçək bayramlarının, meşə və quş günlərinin, təbiət dostları və gənc bağbanların müsabiqələrinin təşkili kimi tədbirləri məktəblərdə ənənə şəklinə salmaq lazımdır.

Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. "Təbiəti qorumaq sağlamlığı qorumaq deməkdir", "Doğma yurdumuzun təbiəti" mövzularında viktorinalar, "Heyvanların mühafizə günü", "Doğma yurdumuzun dərman bitkiləri" mövzularında seminarlar, "Meşələr bizim təbii sərvətimizdir" və sair mövzularda tədbirlər keçirilib.

Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzinin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə çalışacaq, məktəblilərin ekoloji tərbiyəsinin düzgün formalaşdırılmasında fəallıq göstərəcək.

**Vüsalə QASIMOVA**
*mərkəzin əməkdaşı*

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin mart ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1441699 | 144170 | 145470 | 100,9 |
| 2. | Culfa rayonu | 1308860 | 130886 | 132013 | 100,9 |
| 3. | Sədərək rayonu | 309564 | 30956 | 31170 | 100,7 |
| 4. | Şahbuz rayonu | 622478 | 62248 | 62644 | 100,6 |
| 5. | Babək rayonu | 2463235 | 246324 | 247523 | 100,5 |
| 6. | Kəngərli rayonu | 916487 | 91649 | 92019 | 100,4 |
| 7. | Naxçıvan şəhəri | 3022054 | 302205 | 302910 | 100,2 |
| 8. | Şərur rayonu | 2047205 | 204721 | 205020 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 5170905 | 516640 | 538666 | 104,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **17302487** | **1729799** | **1757435** | **101,6** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1119 | 67,1 | 67,5 | 100,6 |
| 2. | Culfa rayonu | 1062 | 63,7 | 64,0 | 100,5 |
| 3. | Şahbuz rayonu | 415 | 24,9 | 25,0 | 100,4 |
| 4. | Kəngərli rayonu | 699 | 41,9 | 42,0 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 2750 | 165,0 | 165,0 | 100,0 |
| 6. | Şərur rayonu | 1891 | 113,5 | 113,5 | 100,0 |
| 7. | Babək rayonu | 1500 | 90,0 | 90,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 350 | 21,0 | 21,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 17130 | 1027,9 | 1033,0 | 100,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **26916** | **1615,0** | **1621,0** | **100,4** |

**Qeyd:** Mart ayında texniki itki nəzərə alınmaqla daxil olan 26 milyon 916 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 615 min manat olmuş, cəmi 1 milyon 621 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,4 faizini təşkil edir.



Muxtar respublikada iqtisadi və mədəni həyatın bütün sahələrində müxtəlif peşə ixtisaslı kadrlara olan tələbatın təmin edilməsi, işaxtaran vətəndaşların, eləcə də sağlamlıq imkanları məhdud şəxslərin məşğulluq imkanlarının artırılması məqsədilə peşə hazırlığının təşkili daim diqqət mərkəzindədir.

# Gənclərin və sağlamlıq imkanları məhdud şəxslərin peşə hazırlığı diqqət mərkəzindədir

Fevralın 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə verilən tapşırıqların, o cümlədən muxtar respublikada əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin davam etdirilməsi, peşə hazırlığının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması və əlillərin məşğulluğunun təmin edilməsinin icrası ilə bağlı bir sıra işlər görülür.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan Regional Peşə Tədris Mərkəzində kənd təsərrüfatı və xidmət sahələrində ixtisaslı kadrlara olan tələbatı, həmçinin gənclərin və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunu təmin etmək məqsədilə "traktorçu-maşınçı", "dərzi" və "kompüter istifadəçisi" peşələri üzrə kurslar təşkil edilib.

"Traktorçu-maşınçı" peşə kursuna hərbi xidmətdən tərxis olunan 16 nəfər, "dərzi" və "kompüter istifadəçisi" peşə kurslarına isə sağlamlıq imkanları məhdud 20 nəfər cəlb olunub.

Kurslar "traktorçu-maşınçı" və "dərzi" peşələri üzrə, müvafiq olaraq, martın 5-i və 10-da, "kompüter istifadəçisi" peşəsi üzrə isə aprelin 1-də başlanıb.

Peşə kurslarında təhsil müddəti 3 aydır. Təsdiq olunan tədris proqramına uyğun olaraq, müdavimlər mərkəzdəki elektron lövhə, kompüter sinifləri, emalatxanalar vasitəsilə peşə sirlərini öyrənəcək, həmçinin təcrübə məşğələləri ilə bilik vərdişlərinə yiyələnəcəklər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Basketbol üzrə muxtar respublika çempionatı davam edir

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyası cari ilin əvvəlindən başlayaraq ilk dəfə basketbol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika çempionatına start verib.

Mart ayının 14-də başlayan çempionat iki dövrədən ibarətdir. İlk dövrə iyun ayının 8-də yekunlaşacaq. Bundan sonra istirahətə yollanacaq basketbolçular ikinci dövrəyə sentyabrın 27-də start verəcəklər. 3 ay davam edəcək ikinci dövrənin oyunlarına dekabrın 27-də yekun vurulacaq.

Basketbol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika çempionatında 8 komanda iştirak edir. "Naxçıvan", "Lokomotiv", "Babək", "Sədərək", "Şərur", "Ordubad", "Culfa" və "Naxçıvan" Universiteti" komandalarının birincilik uğrunda mübarizə apardığı çempionatın artıq 7 oyunu geridə qalıb. Açılış matçında çempionatın favoriti kimi göstərilən "Naxçıvan" komandası İlham Əliyev adına Olimpiya-İdman Kompleksində "Babək" komandasını sınağa çəkib. Oyun və dəqiqlik baxımından babəkli həmkarlarından üstün olan birincilər meydanı 53:25 hesablı qələbə ilə tərk ediblər. Bu görüşdən sonra "Naxçıvan" səfərdə "Sədərək" və "Lokomotiv" komandalarını da məğlub etməyi bacarıb. Sədərək komandası üzərində 66:38 hesabı ilə qələbə qazanan "Naxçıvan" komandasının ən baxımlı oyunu "Lokomotiv"lə görüşdə olub. Daha təcrübəli basketbolçularının səbəti dəqiq və düzgün nişan almasından maksimum istifadə edən favorit komanda rəqibin daşını daş üstə qoymayıb – 47:91. Onu da qeyd edək ki, "Naxçıvan" komandası bu qələbələrdən sonra turnir cədvəlinə başçılıq edir.

İlk görüşündə məğlub olan "Sədərək" komandası ikinci görüşdə də meydanı məğlub tərk edib. Onları bu dəfə məğlub edən "Babək" komandası olub – 61:38. Sədərəklilər kimi, "Şərur" komandası da hər iki görüşdə məğlub olub. Çempionatın ilk oyununda doğma arenada ordubadlı həmkarlarına məğlub olan (23:47) şərurlular ikinci görüşdə də meydanı xalsız tərk ediblər. Onlar bu dəfə səfərdə "Culfa" komandasından zəif olublar – 61:27.

Çempionata itkisiz davam edən digər komanda "Ordubad"dır. İlk görüşdə "Şərur"u məğlub edən ordubadlılar "ev" oyununda da bu üstünlüklərini davam etdiriblər. Onlar doğma arenada "Naxçıvan" Universitetinin komandasına əsl basketbol dərsi keçiblər – 72:35.

Qeyd edək ki, basketbol üzrə kişilər arasında Naxçıvan Muxtar Respublika çempionatının növbəti oyunları bu həftə keçiriləcək.

# Daxili İşlər Nazirliyinin idmançıları 4 medal qazanıblar

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (DİN) Bakı şəhərində təşkil etdiyi sərbəst güləş üzrə DİN əməkdaşları arasında respublika çempionatına yekun vurulub. Bu yarışda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idmançıları da iştirak ediblər. Nazirliyin "İdman" Cəmiyyətinin rəisi, polis polkovniki Cavanşir Salayevin rəhbərliyi ilə Bakıya yollanan 7 güləşçimizdən dördü mükafatçılar sırasına düşməyi bacarıb. Belə ki, 65 kiloqram çəki dərəcəsində mübarizə aparan Mahir Babayev yalnız həlledici qarşılaşmada məğlub olub və ikinciliklə kifayətlənib. Onun kimi 74 kiloqram çəki dərəcəsində Ramin Məmmədov da gümüş medalla mükafatlandırılıb. Ağır çəki dərəcəsində mübarizə aparan Elməddin Abdullayev (97 kq) və Kamil Salayev (125 kq) isə üçüncü yerə layiq görülüblər.

Qalib idmançılarımıza diplom, medal və idman geyimləri təqdim edilib.

Məlumat üçün qeyd edək ki, idmançılarımız bu uğurdan sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sərbəst güləş üzrə yığmasına dəvət olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 276